ədalət.- 2022.- 23 iyul.- S.8.



# YENİYETMƏLƏRƏ ŞİRİN-ŞƏKƏR SÖZ ÇƏLƏNGİ

Ələsgər ƏLİOİĞLU

**Beynəlxalq Andersen Şərəf Diplomu və Azərbaycan Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" mükafatı laureatı şair Qəşəm İsabəylinin Şirvannəşr (Bakı-2022) tərəfindən çapdan buraxılan "Əsərləri toplusu"nu (I cild) nəzərdən keçirdikdən sonra belə bir qənaətə gəldim ki, o, ədəbiyyatımızda özünü göstərən geniş bir boşluqda qələm çalır.**

Kiçik yaşlı uşaqlar üçün yazan müəlliflərimiz elə də çoxluq təşkil etməsələr də, hər halda qismən məqbul sayılmalıdır.Ancaq bu gün yeniyetmələr üçün yazanlarımızı barmaqla göstərmək olar. Bunlardan biri , bəlkə də elə birincisi Qəşəm İsabəylidir. Ən kiçik uşaqların həyatından verilən poetik təsvirlərə belə, bir yeniyetmə baxışı ilə yanaşılır.

-Əllərin neçədir, Şəmşəm?
-Yəqin ki,
İki...
-Ayağın neçədir, Şəmşəm,
-Dörd
-At olmusan?!
-İməkləyirəm.

Söz yox ki, bu, iməkləyən uşağın deyil, yeniyetmənin müşahidəsi nəticəsində meydana çıxan, düşündürücü bir cavabdır. Müəllifin bu səpkili şeirlərilə kitabda tez-tez qarşılaşırıq. Kiçik yaşlı körpələrin həyatından bəhs edən "Çaydan", "Fərari", "Alver", "Babamın üzü", "Ay ata", "Zəif" və bu kimi lövhələrin hər biri fikrimizin konkret təsviri kimi özünü doğruldur.

Şairin yeniyetmələr üçün qələmə almış olduğu nümunələrdə yurd-yuva sevgisi, zəhmətə bağlılıq,təbiətə məhəbbət və s. bu kimi mənəvi dəyərlər əsas yer tutr. Bu nümunələrin ən ümdə xüsusiyyətləri ondan ibarətdir ki, müəllif oxcusuna mənəvi zövq verməklə yanaşı, onların bilgi qazanmalarına da şərait yaradır. "Babamın yaşı" şeirinə nəzər yetirək:

*-Neçə yaşın var, çinar?*
*-Köklərimdən soruş, gəl!*
*-Ay çinarın kökləri,*
*Siz bilərsiniz məgər?*

*-Biz nə deyək, yaxşısı*
*Tap beli,*
*Beldən soruş.*
*-Ay bel, sən nə deyirsən?*
*-Tap əli,*
*Əldən soruş.*

*Tapdım əli...*
*Buy, bu ki,*
*Babamın əlləriymiş!*
*Çinarın başı üstə,*
*Bir əsrin illəriymiş!*




Kitaba daxil edilmiş "Ortaq", "Söhbətcil", "Yel baba", "Şəhərli oğlan", "Ərköyün", "Bizim küçük", "Konsert", "Arılarla dəyib aram", "Bizim it", "Babamın qarğışı", "Ən böyük canlı", "Ən ağır söz", "Mənim bağım", "Oyundan sonra", "Məktub", "Döyüşçü", "Zəmi", "Başaq", "Abşeron", Vətən-yəni biz", "Şikəst adam" və s. poetik nümunələrin hər biri də uşaqlara nəsə yeni bir bilgi aşılayır. Kitabda bu səpkili poeziya nümunələr çoxluq təşkil edir.

Qəşəm İsabəylinin poemaları da real həyat qaynaqlarından mayalanmış uğurlu nümunələrdir. Bu əsərlərin qəhrəmanları xarakter etibarilə bir-birindən fərqlənsə də, onları eyni bir ruh, eyni bir arzu-istək birləşdirir. "Şamaxı-Şam nağılı", "Əkil-Bəkil" və "Nənəm təkdi" poemaları incə duyğular üstə köklənmiş, yumorla dada-duza gətirilmiş əsərlərdir.

Bu poemalardakı hadisələr, əhvalatlar və ayrı-ayrı məqamlarda özünü göstərən yumor hissi yeniyetmə oxucuda xoş əhval-ruhiyyə doğurur. Müəllifin əsərlərindəki mövzu əlvanlığı, deyim tərzi, sözlərdən yerli-yerində istifadə, həmçinin bu kimi bir sıra ədəbi keyfiyyətlər oxucuların maraq dairəsini daha da genişləndirir.

Kitaba filologiya üzrə fəlsəfə doktoru, dosent Günay Qarayeva "Balaca dünyanın böyük həqiqətləri" adlı ön söz yazmışdır. Ön sözdən aydın görünür ki, o, uşaq ədəbiyyatına dərindən (özü də çox dərindən!) bələddir. Məqalədə aparılmış təhlillər və araşdırmalar bu mövzuda olan qrafoman yazılardan seçilir.

**Qəşəm İsabəylinin bu kitabı yeniyetmə oxucularımız üçün bir müdriklik çələngidir desək, yəqin ki, yanılmarıq. Bu çələng yuxusuz gecələrdə gərgin zəhmət bahasına şirin-şəkər sözlərdən hörülmüşdür. Söz yox ki, şairin "Əsərləri toplusu" çağdaş Azərbaycan uşaq ədəbiyyatının inkişafında əlamətdar bir görüntü yaradır ki, bu görüntü həyatda öz yerini tutmağa çalışan övladlarımızın yüksək bir mənəvi ruhda böyüməsinə şərait yaradacaq.**